# Şuşa-Laçın yolunda tarix yazılır

İctimai və ekoloji fəalların Xankəndini Ermənistanla birləşdirən Laçın yolunda keçirdikləri etiraz aksiyası davam edir. Azərbaycanlı fəallar "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qeyri-qanuni istismarına etiraz edirlər.

Aksiya dinc xarakter daşıyır, iştirakçıların məqsədi Qarabağda ekoloji terrora son vermək və ətraf mühitin mühafizəsinə nail olmaqdır. Ermənilərin belə sülhpərvər və qlobal əhəmiyyətli aksiyaya müxtəlif don geyindirmək cəhdləri isə əsassızdır. Azərbaycan 44 günlük Vətən müharibəsində öz ərazi bütövlüyünü təmin etməklə faydalı qazıntı yataqlarına nəzarəti də üzərinə götürməlidir. Yəni təbii sərvətlərimizin düşmən tərəfindən talan edilməsinə göz yummaq, ekoloji mühitin çirklənməsinə səbəb olan amillərə qarşı səssiz qalmaq mümkün deyil. Ona görə də Azərbaycan öz suveren ərazilərində qeyri-leqal iqtisadi və ekoloji fəaliyyətlərin qarşısını almaqda qətiyyətlidir.

Şuşa-Laçın yolunda keçirilən dinc aksiya həm də Azərbaycan xalqının bütövlüyünün və həmrəyliyinin bariz nümunəsidir.





## Aksiya iştirakçıları qətiyyətlidirlər

Aksiya iştirakçısı, Gəncliyin Sosial-İqtisadi İnkişafına Yardım İctimai Birliyinin sədri Əfsələddin Ağalarov deyib ki, Şuşa-Laçın yolunda ictimai fəallar və ekoloqlar tərəfindən keçirilən aksiya yüksək ab-hava ilə davam edir: "İştirakçılar tələblərini səsləndirir, suveren ərazilərimizdə törədilən ekoloji terrorlara və təbii sərvətlərimizin qanunsuz istismarına etiraz edirlər. Əlbəttə ki, faydalı qazıntı yataqlarımızın qeyri-qanuni istismarına, ermənilərin talançılıq siyasətinə laqeyd qala bilmərik. Aksiyanın əsas məqsədi də elə illərboyu ermənilər tərəfindən talan edilmiş "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında Azərbaycan mütəxəssislərinin ilkin monitorinqi üçün şərait yaradılmasına nail olmaqdır. Xankəndidəki separatçılar isə bu aksiyanın başqa məqsədlərlə təşkil olunduğunu deyir, Laçın yolunun guya ekofəallar tərəfindən bağlanıldığını iddia edirlər. Görünür, Vardanyan və Arutunyan dinc erməniləri bilərəkdən təşvişə salır, onları provokasiyaya cəlb edirlər. Lakin aydındır ki, həmin yolu azərbaycanlılar deyil, sülhməramlı kontingent bağlayıb".

Ə.Ağalarov bildirib ki, 10 noyabr üçtərəfli Bəyanatına əsasən, sülhməramlı kontingentin müvəqqəti nəzarət zonasındakı erməni silahlı dəstələri oradan çıxarılmalı və birgəyaşayış mühiti təmin olunmalı idi: "Lakin sülhməramlılar ikiillik fəaliyyətləri müddətində buna nail ola bilməyiblər. Əksinə, onlar ermənilərin separatizm fəaliyyətinə dəstək veriblər. İndi isə Azərbaycan 30 illik işğaldan sonra torpaqlarını işğaldan azad edib. Biz də haqlı olaraq əzəli torpaqlarımızda, suveren ərazilərimizdəki prosesləri izləyərək ekoloji mühitə nəzarət etmək istəyirik. Bu, olduqca normal tələbdir. Tələblərimizdən dönməyəcəyik, dövlətimizə məxsus olan faydalı yataqlarda azərbaycanlı mütəxəssislərin monitorinqi təmin olunanadək mübarizəmizə davam edəcəyik".

## Ekoaksiya nəticə verməyə başlayır

İctimai fəal qeyd edib ki, vətəndaş cəmiyyətinin nümayəndələri olaraq hər zaman dövlətimizin və xalqımızın yanında olmaq borcumuzdur: "Bizim tələblərimiz aydındır - Azərbaycan monitorinq qrupunun yataqlarda təhlükəsiz araşdırma aparması üçün sülhməramlı kontingent tərəfindən şərait yaradılmalıdır. Onu da qeyd edim ki, aksiyanın nəticələri özünü göstərməyə başlayır, yəni buna müəyyən reaksiyalar var. Bu, tələblərimizin birbaşa təminatı olmasa da, dolayısı ilə aksiyanın təsir gücünü göstərir. Yeri gəlmişkən, fəallar dinc ermənilərə hansısa problem yaratmaq niyyətində deyillər. Onlar dinc erməni əhalisinə məxsus mülki avtomobillərin, təcili yardım maşınlarının keçidinə şərait yaratmağa hazırdırlar".

Ə.Ağalarov qeyd edib ki, xalqımız torpaqlarımızın talan edilməsinə biganə yanaşa bilməz: "Azərbaycan öz ərazi bütövlüyünü təkbaşına təmin etmiş bir dövlət kimi gücünü nümayiş etdirib. Bu gün də ölkəmizin ekoloji mühitini nəzarətdə saxlamaq, torpaqlarımızı, təbii sərvətlərimizi yadlardan müdafiə etmək bizim üçün qürurvericidir. Ona görə də tələblərimiz nəzərə alınana qədər mübarizəmizdən dönməyəcəyik".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 21 dekabr.- S.6.